Dünyamalı Vəliyev – 80

***Tanınmış iqtisadçı alim, vətənpərvər ziyalı Dünyamali Vəliyev hələ gənclik illərində ixtisas seçərkən belə qənaətə gəlmişdir ki, Azərbaycanın sovet imperiyası daxilində milli varlığını qoruyub saxlaması xalqımızın dünyadakı yüksəlişlə ayaqlaşmasından, ölkəmizin gələcək hərtərəfli inkişafı isə onun sürətli iqtisadi tərəqqisindən asılı olacaq. Xalqına, ölkəsinə sədaqətlə xidmət etmək, onun inkişafında daha çox gərəkli olmaq amalı ilə yaşayan soydaşımız məhz iqtisadçı olmağı qərara almışdır.***



# Tərəqqiyə və Vətən sevgisinə xidmət edən alim

Dünyamalı Vəliyev 1942-ci ilin martında böyük alimlər, sənətkarlar yetirən Borçalının Qasımlı kəndində anadan olmuşdur. Ali təhsil almaq, mənsub olduğu xalqa daha çox gərəkli olmaq istəyi onu bu qədim türk yurdunun axar-baxarlı, zəhmətə bağlı Qasımlı kəndindən Azərbaycanın paytaxtı, Sovet İttifaqında yaşayan soydaşlarımızın baş elmi-mədəni mərkəzi olan Bakı şəhərinə, o vaxtkı Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə gətirmişdir. O, bu şəhərdə ali təhsil almış, ixtisası üzrə işləmiş, elmi fəaliyyətə başlamışdır. İllər keçsə də nə düşünən beyni elmi-pedaqoji fəaliyyətdən soyumuş, nə də döyünən ürəyi yeni arzusuz, həvəssiz qalmışdır.

Bugünlərdə 80 yaşı tamam olan iqtisad elmləri doktoru, AMEA Şərqşünaslıq İnstitutunun Şərq-Qərb şöbəsinin müdiri Dünyamalı Vəliyev öz ixtisası sahəsində və elmi-pedaqoji fəaliyyəti ilə bağlı yaradıcılıq dəsti-xətti, samballı xidmətləri ilə seçilən, nüfuz qazanan ziyalılarımızdandır. İqtisadçı alim olmaq, milli təhsilə də xidmət etmək kimi şərəfli bir amal onun bioqrafiyasına iftixar olunası nailiyyətlərlə yazılmışdır.

Gənc iqtisadçı təhsilini davam etdirmək, təcrübəli mütəxəssis olmaq məqsədilə 1964-cü ildə ali məktəbi bitirdikdən sonra istehsalatdan ayrılmadan Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitunun aspiranturasına daxil olmuşdur. Dünyamalı Vəliyev 1971-ci ildə Türkiyənin muasir iqtisadiyyatı ilə bağlı dissertasiya işini müdafiə etmiş, iqtisad elmlər namizədi alimlik dərəcəsi almışdır. O, 1971–1979-cu illərdə Rostov-Don Dəmir Yolları İnstitunda pedaqoji fəaliyyət göstərmiş, dosent vəzifəsində çalışmışdır.

Dünyamalı Vəliyev elmi yaradıcılığını 1979–1992-ci illərdə AMEA-nın Şərqşünaslıq İnstitunda baş elmi işçi kimi davam etdirmiş, Türkiyənin tarixi və iqtisadiyyatı şöbəsinin müdiri və elmi işlər üzrə direktor müavini işləmişdir. Qəlbində Türk dünyasının tərəqqisi ilə bağlı böyük arzu-ümidlər bəsləyən alim hələ Sovet İttifaqının Türkiyəyə soyuq münasibəti illərində qardaş ölkənin iqtisadiyyatına böyük maraq göstərmiş, onun iqtisadi problemləri üzərində elmi-tədqiqat işləri aparmış, bu mövzuda sanballı kitablar ərsəyə gətirmişdir. Şübhəsiz, həmin əsərlər ölkəmizdə bu sahədə elmi bazanın yaradılmasına kömək etmiş, tədqiqatçılar üçün olduqca dəyərli mənbəyə çevrilmişdir. Bu dövrdə yazılmış “Dövlət maliyyəsi və Türkiyənin sosial-iqtisadi inkişafı”, “Türkiyə – Turqut Özal: iqtisadi möcüzələr” adlı kitablar hər iki ölkədə böyük maraqla qarşılanmışdır.

İqtisadçı alim olmasına baxmayaraq, Dünyamalı müəllim yaradıcılığının bir qismini müxtəlif ictimai-siyasi, hətta ədəbi mövzulara həsr etmişdir. Bunların əsas qayəsini isə vətənpərvərlik, gənclərə vətən sevgisi aşılamaq, müqəddəs amallara çağırış təşkil etmişdir. O belə düşünüb-fəaliyyət göstərmişdir ki, alim həm də vətənsevər olduqda, xalqın həyati problemləri ilə nəfəs aldıqda ölkəsi üçün daha çox faydalı gətirir. Millətsevərlik və vətənpərvərlik onun həyatının mənasıdır.

1989–1992-ci illərdə xalqımızın torpaqlarımızın bütövlüyünün qorunması uğrunda mübarizəsi böyüyüb milli-azadlıq hərəkatına çevriləndə Dünyamalı Vəliyev də bir yurdsevər ziyalı kimi bu proseslərdə öz qələmi, sözü ilə yaxından iştirak etmişdir. Türkiyəşünas alim 1991-ci ildə türkiyəli professor Utkan Qocatürkün “Atatürk” kitabını Azərbaycan dilinə çevirmiş, bu əsərə insanları azadlığa, müstəqilliyə səsləyən “Ön söz” yazaraq qardaş ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatı ilə maraqlanan geniş oxucu kütləsinə ərməğan etmişdir. Həmin “Ön söz”də soydaşımız atatürkçülüyün, kamalizmin mahiyyətini açıqlamış, Azərbaycan və Türkiyə arasında əlaqələrin dövrün tələblərinə uyğun inkişaf etdirilməsi zərurətini önə çəkmiş, insanları azadlığa, müstəqilliyə səsləyən hədəflərə geniş yer vermişdir.

Xalqımız uzun illər erməni təcavüzünə məruz qalmasına, bu səbəbdən min bir faciə yaşamasına da Dünyamalı müəllim bigənə qala bilməmiş, bütün bu vəhşilikləri dünya birliyinə çatdırmaq üçün özünün növbəti – “Erməni terrorizmi və cinayətləri: Azərbaycanda, Türkiyədə və dünyada hadisələrin və faktların xronikası” adlı kitabını yazmışdır. Böyük zəhmətlə araya-ərsəyə gələn kitabda hadisələr real faktlara söykənərək xronoloji ardıcıllıqla verilmişdir. Kitab ərəb dilinə tərcümə edilərək Şərq ölkələrində də geniş yayılmışdır.

İslam Konfransı Təşkilatının beynəlxalq təşkilatlar arasında Azərbaycana qarşı erməni vəhşiliklərini ilk dəfə olaraq “təcavüz” adlandırmasında, şübhəsiz, Dünyamalı müəllimin tədqiqatlarının da elmi- informativ rolu olmuşdur. “Borçalının söz xəzinəsi” kitabı isə alimin dədə-baba yurdu, suyunu içib, havasını udduğu Borçalı mahalının el sənətinə, folklor yaradıcılığına, aşıq ədəbiyyatına sonsuz məhəbbətindən qaynaqlanmışdır.

Dünyamalı Vəliyev 1993–1994-cü illərdə Azərbaycan Respublikasının Nazirlər Kabinetində Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri olmuş və ölkəmizdə beynəlxalq iqtisadi münasibətlər sahəsində normativ aktların hazırlanmasına bilavasitə rəhbərlik etmişdir. 1995-ci ildən Azərbaycan Universitetində iqtisadiyyat kafedrasının müdiri olmuş Dünyamalı Vəliyev “Beynəlxalq iqtisadiyyat” (1998), “Beynəlxalq maliyyə” (2000), “Vergi hüququ” (2003) kimi sanballı iqtisadi dərsliklərin müəllifidir. Bu kitabları Təhsil Nazirliyi ali məktəblər üçün dərslik kimi təsdiq etmişdir.

Tanınmış iqtisadçı alim nüfuzlu “İpək yolu” jurnalının redaktoru olmuş, Böyük İpək yolu, onun Azərbaycan iqtisadiyyatında rolu, qloballaşma və onun nəticələri haqqında çoxsaylı məqalələr yazmışdır. Dünyamalı Vəliyevin doktorluq işi “Azərbaycanın qlobal maliyyə-iqtisadi mühitinə inteqrasiyanın aktual problemləri” mövzusuna həsr edilmişdir. Onun “Karyera: şəxsi müvəfəqiyyətin strategiyası” adlı kitabı isə gənclərin sevimli kitablarından birinə çevrilmişdir.

Mənalı ömrünü Azərbaycan iqtisad elminin və ali təhsilinin, milli iqtisadiyyatın inkişafına həsr etmiş alim 20-dək kitabın və 100-dən çox məqalənin müəllifidir. Dünyamalı müəllim 50 ildən çoxdur ki, elmi-pedaqoji sahədə yorulmadan çalışır, xalqımızın elm xəzinəsinə öz məhsuldar qələmindən töhfələr verir. O, Azərbaycanın elm və mədənyyətini Moskva, Kiyev, Tbilisi, Ankara, İstanbul, Tehran, Tokio şəhərlərində keçirilmiş elmi konfranslarda ləyaqətlə təmsil etmişdir.

İnanırıq ki, ömrünün bu müdriklik çağında da alim oxucularını yeni əsərləri ilə sevindirəcəkdir. Sakit təbiətli insan, ciddi xarakterli alim, yurdsevər ziyalı Dünyamalı Vəliyevi bugünlərdə 80 yaşının tamam olması münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, tükənməyən yaradıcılıq əhvalı arzulayırıq. Yubiliyar alimin 80 illik ömrünü şərəfləndirmiş elmi-pedaqoji uğurları, vətənpərvərlik fəaliyyəti davamlı olsun!

***Səlahəddin XƏLİLOV,***
***fəlsəfə elmləri doktoru, professor,***
***AMEA-nın müxbir üzvü***